*Peşə təhsili və insan kapitalı. Cild 4, №4, 2021 s.16-22*

# PEŞƏYÖNÜMÜ TEXNOLOGİYASINDA NİZAMİ İRSİNİN NÜMUNƏLƏRİ



**Şahrza Ağayev,**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti, pedaqogika üzrə fəlsəfə doktoru, qabaqcıl təhsil işçisi*
*e-mail: shahrza-a@mail.ru*



**Cəmilə Qarayeva,**
*Bakı Dövlət Universitetinin Qazax filialının Pedaqoji fənlər kafedrasının baş müəllimi*
*e-mail: abdullayevagulnar03@gmail.com*

**UOT:** 37; 82

**Xülasə**. *Məqalədə peşəyönümü texnologiyası təlim-tərbiyə prosesinin mühüm tərkib hissəsi olduğundan onun təşkili və aparılmasında ənənəvi prinsip və metodların rəhbər tutulmasının vacibliyi, ibtidai təhsil səviyyəsində şagirdlər ilə aparılan peşəyönümü işlərinin məqsədi, vəzifələri və məzmunun məktəbəqədər yaşla müqayisədə ciddi dəyişikliklərin baş verməsi, böyük Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin peşə və sənət seçməyin faydasını yüksək dəyərləndirməsi və onu halal yaşamağın əsas amili hesab etməsi nəzəri və praktiki əsaslarla şərh olunmuşdur.*

***Açar sözlər:*** *əmək bazarı, Nizami irsi, peşəyönümü, texnologiya, "Xəmsə", kamil, bilik, bacarıq, vərdişlər.*
***Key words:*** *labor market, Nizami's heritage, career guidance, technology, Khamsa, perfection, knowledge, skills, habits.*
***Ключевые слова:*** *рынок труда, наследие Низами, профориентация, технологии, «Хамса», совершенство, знания, умения, привычки.*

Müstəqil respublikamızda gənclərin təlim-tərbiyəsi, azad vətəndaş və hərtərəfli bir mütəxəssis kimi yetişməsi, gələcəyin qurucusu olması, vətəninə, xalqına böyük məhəbbətlə xidmət etməsi bazar iqtisadiyyatı şəraitində rəqabətədavamlılığı qarşıya qoyulan əsas hədəflərdəndir. Bunun üçün onları məktəbəhazırlıq dövründən və ibtidai siniflərdən başlayaraq, peşəyönümü istiqamətində düzgün tərbiyələndirmək vacibdir. Xalqımızın gələcəyi olan təhsilalanların ahəngdar inkişafının təmin edilməsində mühüm əhəmiyyət kəsb edən texnologiya və onun tədrisi metodikasının müasir tələblər səviyyəsində tədrisi qarşıda duran mühüm vəzifələrdəndir [5, s.3].

Milli və dünya təcrübəsinin öyrənilməsi, onların müqayisəsi, təhlil edilməsi nəticəsində ümumtəhsildə texnologiya fənninin aşağıda qeyd olunan məzmun xətləri müəyyənləşdirilmişdir ki, bu da öyrənənlərin əldə edəcəyi bilik və bacarıqları daha aydın təsvir etmək, onları sistemləşdirmək məqsədinə xidmət edir: ***emal texnologiyaları, texnika elementləri, məişət mədəniyyəti, qrafika.***

Bütün fənlərdə olduğu kimi, texnologiya fənninin məzmunu da sinifdən-sinfə, konsentrik əsasda sadədən mürəkkəbə, asandan çətinə

prinsipi üzrə getdikcə zənginləşsə də məzmun xətləri dəyişməz qalır. Qeyd olunan hər bir məzmun xətti üzrə qazanılan bilik şagirdlərdə müvafiq təlim nəticələri formalaşdırır.

**Emal texnologiyaları əsas məzmun xətlərindən** biri olub, şagirdlərin peşələrlə tanış edilməsini, onların ilkin ümuməmək bacarıqlarına və elementar əmək vərdişlərinə yiyələnmələrini təmin edir. Şagirdlər gündəlik həyatda, məişətdə müəyyən hallarda materialların, enerjinin, informasiyaların dəyişdirilməsi və istifadəsi prosesində iştirak etdiklərinə görə onlara müəyyən emal tenologiyalarına aid bacarıq və vərdişlərin aşılanması zəruri sayılır. Göstərilən obyektlərin dəyişdirilməsi və istifadəsi müxtəlif metod və vasitələrlə (alətlər, texnika) əldə olunduğu və bunların əsasını emal texnologiyaları təşkil etdiyi üçün qeyd olunan bu məzmun xətti texnologiya fənninə daxil edilmişdir. Bu məzmun xətti üzrə qazanılan bilik və bacarıqlar vasitəsi ilə təhsilalanlar məmulatın texniki və bədii konstruksiya edilməsinin əsas prinsipləri ilə praktik tanış olur, estetik və dizayn tələblərinə uyğun müxtəlif məmulatlar hazırlayırlar. Gələcəkdə də əldə edəcəkləri peşənin xarakterindən asılı olmayaraq, onlar özlərinin həyat şəraitini yaxşılaşdırmaq üçün materialların emal texnologiyalarından istifadə edə bilərlər.

Emal texnologiyaları məmulatın hazırlanması prosesində materialın, xammalın və ya yarımfabrikatın vəziyyətinin, xassələrinin və formalarının dəyişdirilməsi üçün istifadə olunan texnoloji əməliyyatlardır. Emal texnologiyalarına ***ölçmə, deşmə, kəsmə, nişanlama, yapma, qatlama, tikmə, hörmə*** və s. daxildir.

Materialın formasını və ölçüsünü dəyişdirmək üçün istifadə olunan bütün alətlər ***emal vasitələri*** adlanır. Emal vasitələri təyinatına görə xarakterizə olunur: Məsələn, qayçı kəsici alət, iynə sərt materialdan hazırlanmış, bir tərəfdən sap üçün qulaqcığı olan, şişuclu, nazik, uzunsov alətdir və onun köməyi ilə tikmə əməliyyatı yerinə yetirilir. Çəkic zərbə aləti; elektrik burğusu deşik açmaq üçün nəzərdə tutulmuş elektromexaniki alət; balta kəsici alət; məngənə çilingər və ya xarrat aləti; rəndə oduncağı yonmaq üçün istifadə olunan əl aləti; bıçaq kəsici alət; mişar bərk materialları (oduncaq, metal, plastik kütlə, daş və s.) kəsmək üçün çoxlu sayda kəsici dişləri olan kəsici alətdir.

Təyinatına görə texnoloji vasitələrin və maşınların təsnifatına – çilingər, xarrat, tikinti, yol, kənd təsərrüfatı alətləri, ölçmə və meteroloji cihazlar daxildir. ***Çilingər alətlərinə*** burğu, çəkic, kəlbətin, yeyə, vintaçan, yastıağız kəlbətin, itiağız kəlbətin, taxta çəkic, dəmir qələm, deşikaçan və s.; ***xarrat alətlərinə*** əl burğusu, lobzik (əyrixətli konturu olan fiqurları mişarlamaq üçün alət), mişar, rəndə, bıçqı, iskənə, rəngsaz malası, taxta çəkic, su tərəzisi və s.; ***kənd təsərrüfatı alətlərinə*** isə susəpən, yaba, bel, dırmıq, dəryaz, kotan, bağban qayçısı və s. daxildir.

İş prosesinin təyinatına və xarakterinə görə maşınlar qrupuna aiddir: ***energetik maşınlar*** (maşın mühərriklər), bu maşınlar hər hansı növ enerjini mexaniki enerjiyə çevirir. ***Dəyişdiricilər*** (generatorlar), bu maşınlar mühərrikdən alınan mexaniki enerjini başqa növ enerjiyə çevirir (məsələn, cərəyan generatorları, turbinlər, daxiliyanma mühərrikləri, soyuducular və s.).

***Nəqliyyat maşınlarına*** texnoloji maşınlar (maşın-alətlər, iş maşınları) daxildir. Bu maşınlar mühərrikdən alınan mexaniki iş vasitəsi ilə emal olunan materialların forma və halının dəyişdirilməsində istifadə edilir (məsələn, metal emalı dəzgahları, kənd təsərrüfatı maşınları, toxuculuq və mətbəə dəzgahları və s.). ***Nəqledici maşınlar*** əşya və materialların vəziyyətini və istiqamətini dəyişdirmək üçündür (məsələn, qaldırıcı kranlar, konveyerlər, nasoslar və s.). ***İnformasiya maşınları*** informasiya mübadiləsini həyata keçirir (məsələn, kompüterlər, mexaniki inteqratorlar, hesablayıcı aparatlar və s.).

**Texnika elementləri məzmun xətti** üzrə təhsilalanlara gündəlik həyatda qarşılaşdıqları texnikanın ümumi xarekteristikasının öyrədilməsi, elmi-texniki tərəqqinin nailiyyətləri, istehsal texnologiyalarının təkmilləşdirilməsi, müasir texniki qurğular və konstruksiyalar haqqında ilkin məlumatların verilməsi, bu sahədə müvafiq bacarıq və vərdişlərin mənimsənilməsi nəzərdə tutulur. Həyata keçirilən təlim işləri təhsilalanlarda texnika aləmi, maşınların növləri və təyinatı, hissələrinin birləşdirilməsi, maket və onlara verilən tələblər (iqtisadi, ekoloji və estetik), texnika üzrə kütləvi peşələr haqqında ilkin bilik və bacarıqları formalaşdırır. Bütün bunlarla yanaşı, təhsilalanlar qarşılaşdıqları əsas texnoloji ma-

şınlar, aqreqatlar, cihazlar, alətlər, onların növləri, quruluşu və iş prinsipləri ilə tanış olurlar. Detallar, mexanizmlər, məişətdə istifadə olunan maşınlar, onların tədbiqi haqqında biliklərə yiyələnməklə, müasir texnoloji avadanlıqların quruluşunu və iş prinsiplərini öyrənir və idarə etmək bacarıqları qazanmağa maraq göstərirlər.

Evdə istifadə olunan bütün texniki avadanlıq ***məişət texnikası*** adlanır. Məişət texnikası insan əməyini yüngülləşdirməklə yanaşı, həm də gündəlik həyatda rahatlıq yaradır. Məişət texnikasına hesablama texnikası, hesablama makinası, şəxsi kompüter; ***mətbəx texnikası*** – soyuducu, dondurucu; mexaniki emal üçün – ət maşını, mətbəx kombaynı, çörəkkəsən, qabyuyan maşın; ***termik emal üçün*** – qaz və elektrik pilətəsi, şirəçəkən; ***geyimə qulluq üçün*** – paltaryuyan maşın, elektrik ütüsü, paltartikən maşın; ***evi yığışdırmaq üçün*** – tozsoran, yuyucu tozsoran; ***digər texnika*** – sərinləşdirici, qızdırıcı, hava ionlaşdırıcısı, elektrik su qızdırıcısı, işıqlandırıcı, elektrik saçqurudanı; ***elektron cihazlar*** – ev kinoteatrı, musiqi mərkəzi, televizor, telefon aparatı və s. daxildir. Bütün bunların nəticəsi olaraq təhsilalanlarda məişətdə işləyəcəkləri sahədə texnika ilə davranmaq mədəniyyəti formalaşdırılır.

**Məişət mədəniyyəti məzmun xətti** üzrə təhsilalanlar qazanmış olduqları bilik və bacarıqlarla, onlara lazım olan davranış qaydalarına riayət etmək, ailənin və onun büdcəsinin idarə olunmasında iştirak etmək, təhlükəsizlik və sanitariya-gigiyena qaydalarına əməl etmək, sadə təmir tikinti işlərini yerinə yetirmək və bitkilərə qulluq etmək və s. kimi vərdişləri qazanırlar. Bununla yanaşı, təhsilalanlarda ailə-məişət mədəniyyəti və ənənələri, interyer tərtibatı və dizayn, ictimai yerlərdə (evdə, nəqliyyatda, məktəbdə, qonaq getdikdə və s.) davranış və ünsiyyət qaydalarına əməl etmək, öz iş və yaşayış yerlərini müəyyənləşdirmək bacarıqları da formalaşır.

**Qrafika məzmun xətti** təhsilalanlara hər hansı bir məmulatı hazırlayarkən, ilk növbədə, onun eskizini, sxemini, rəsmini (şəklini), çertyojunu, təlimat və texnoloji xəritəsini çəkmək və oxumaq bacarığı üçün bilik aşılayır. Elektron qurğularda sadə sxemlərdə olan nasazlıqları tapmaqda qraika məzmun xətti zəruri bilik və bacarıqlarla təhsilalanları təmin edir.

Ali pedaqoji məktəblərdə texnologiya və onun tədrisi metodikası fənninin tədrisində pedaqoji proses əvvəlcədən müəyyən olunmuş nəticələri əldə etmək üçün müəllimin əlaqələndirici, istiqamətverici, məsləhətçi, öyrənənlərin isə tədqiqatçı, təcrübəçi, yaradıcı subyektlər kimi qarşılıqlı əməkdaşlıq fəaliyyətləri əsasında qurulur. Ona görə də bakalavr pilləsində ibtidai sinif müəllimlərinin hazırlığı üçün texnologiya və onun tədrisi metodikası çərçivəsində kurikulum təlimini başa vuran tələbənin qazandığı nəticələrinə daxildir: *əməyin müxtəlif növləri, əmək alətləri və vasitələri, emal vasitələri, onların quruluşu, iş prinsipi və istifadə qaydaları, müxtəlif materiallar və onların xassələri haqqında biliklər əldə edir, texnoloji əməliyyatların kompüterləşdirilməsi, modelləşdirmə və konstruksiya etmə, kompüter texnikasının köməyi ilə model və layihələr qurmaq üzrə vərdişlər qazanır və bunu aşılamağın forma və üsullarını mənimsəyir, müxtəlif materiallarla (kağız, karton və parça və s.) işləmək, enerji emalı, xalq sənətkarlığı nümunələrinə əsasən, materialların emalı, kənd təsərrüfatı əməyinin müasir və perspektiv texnologiyaları haqqında əldə etdiyi nəzəri bilikləri praktik məşğələ zamanı tətbiq etmək bacarığı və vərdişləri əldə edir, özünün və başqalarının hazırladığı məmulatlara münasibət bildirir və onları dəyərləndirə bilir, yüksək məişət mədəniyyəti nümayiş etdirir, tələb olunan məişət, kulinariya və özünə xidmət işlərini yerinə yetirə bilir və bunu təlqin etməyin əhəmiyyətini dərk edir, yaradıcılıq qabiliyyətlərini inkişaf etdirməyin vacibliyini bilir, bunun forma və üsullarını mənimsəyir və bu sahədə müəyyən vərdişlər qazanır.*

Peşələr sürətlə dəyişir. Bəzi peşələrə tələbat olmadığından onlar sıradan çıxır, yeniləri meydana gəlir. Əmək bazarında rəqabətqabilliyi qoruyub saxlaya bilmək, daim tələb olunan mütəxəssis olmaq üçün fasiləsiz öyrənmək, peşəkar bilik və bacarıqlara yiyələnmək, sosial səriştələri inkişaf etdirmək həyati zərurətə çevrilir.

Texnologiya cəmiyyəti formalaşdırır, yoxsa onun ehtiyacları və istəyi texnoloji sənayenin inkişafını müəyyənləşdirir? Bu suala iki təzadlı yanaşma var. Bir qrup iddia edir ki, texnoloji inkişaf cəmiyyəti formalaşdırır və onun inkişaf istiqamətlərini müəyyən edir. Digər qrupa görə

isə cəmiyyətin istəkləri texnologiya sənayesinin vəziyyətini müəyyən edir, yəni texnoloji sənaye sırf cəmiyyətin ehtiyaclarına görə çalışır. Dünya tarixində bugünədək bir çox dönüş nöqtələri olub. Belə dönüş nöqtələrindən olan Sənaye inqilabı, məhz texnoloji innovasiyaların sahəsində gerçəkləşib. XVIII əsrdə baş verən Sənaye inqilabı öncə Qərbi Avropa, daha sonra isə Amerika və bütün dünyanın mənzərəsini köklü şəkildə dəyişdi. İllər keçdikcə ilk sənayeləşən ölkələr iqtisadi gücə və onun verdiyi siyasi gücün sahəsində dünyada hegemon mövqeyə sahib olmağa başladılar. Əgər qatar, təyyarə, maşın və digər nəqliyyat vasitələri olmasaydı, dünyanın hazırkı mənzərəsi olduqca fərqli olardı. Müasir dövrün ən aktual mövzularından olan qloballaşma baş verməz, xalqlar və dövlətlər arasında əlaqələr belə sıx olmazdı. Telefon və internetsiz müxtəlif coğrafi məkanlarda yaşayan insanlar arasında əlaqə indiki kimi yaxın ola bilməzdi. Bu nümunələr texnologiyanın cəmiyyət üzərindəki nəzərə çarpacaq dərəcədə təsir gücünün olduğunu nümayiş etdirir.

Texnoloji avadanlıqları və şirkətləri istehsal və idarə edən insanlardır. Onların texnoloji sənayeyə təsiri qaçılmazdır. İnsanların həyat şəraitini daha da yaxşılaşdırmaq istəyi texnologiyanın inkişafına ciddi təsir göstərmişdir. Texnologiya fənninin qarşısında duran əsas vəzifələrdən biri də təlim-tərbiyə işinin keyfiyyətini yaxşılaşdırmaq və şagirdin əmək qabiliyyətini müasirləşdirməkdir. Məktəb haqqında verilən qərarlarla əsasən son illərdə təhsilin məzmunu yeniləşmiş və qarşıya qoyulan vəzifənin həllində xeyli işlər görülmüş və müsbət nəticələr əldə edilmişdir. Qabaqcıl texnologiya müəllimləri texnologiya dərslərində təkcə kompüterin əsaslarını öyrətməklə kifayətlənmir, həmçinin dərsdə öyrəndikləri nəzəri bilikləri təcrübəyə tətbiq etməklə onlarda bacarıq və vərdişləri formalaşdırır.

İbtidai təhsil səviyyəsində şagirdlər ilə aparılan peşəyönümü işlərinin məqsədi, vəzifələri və məzmunu məktəbəqədər yaşla müqayisədə ciddi dəyişikliklərə səbəb olur. Texnologiyanın məzmun xətlərinə daxil olan uşaq oyunları təlim əməyi ilə əvəz olunur. Bu dövrdə uşaqların psixi və fizioloji inkişafında müəyyən dəyişikliklər baş verir. Onların hafizəsi, təfəkkürü, diqqəti, maraq dairəsi, eləcə də boyu, əzələləri və s. sürətlə inkişaf edir. Bu çoxcəhətli dinamik prosesə düzgün istiqamət vermək vacibdir. İbtidai siniflərdə şagirdlərin təlim əməyini maraqlı şəkildə qurmaq tələb olunur. Şagirdlərin sonrakı illərdəki fəaliyyəti bu dövrdəki təlim-tərbiyə prosesinin düzgün təşkilindən həlledici dərəcədə asılı olduğundan onlarda təlimə ciddi münasibət və maraqlar tərbiyə etmək xüsusi əhəmiyyət kəsb edir. Belə münasibət onlarla aparılan peşəyönümü işində də vacibdir. Uşaqların əməklə, peşə ilə tanışlığı ailədən başlayır. Onlar ailədə valideynlərinin və ailənin böyükyaşlı üzvlərinin əməyi ilə tanış olur, məişət əməyində bilavasitə iştirak edir, gücləri çatan ev işlərində valideynlərinə kömək edirlər. Bununla yanaşı, kiçikyaşlı məktəblilər çox vaxt ailədə əmək, peşə, faydalı iş və s. haqqında ailə üzvlərinin söhbətlərini də eşidir, onların peşələri haqqında müəyyən məlumata yiyələnirlər. Bütün bunlar isə şagirdlərdə ilk əmək vərdişlərinin və peşələrlə tanışlığın yaranmasında müəyyən rol oynayır. Əməyə və peşəyə meyillilik ona hörmət və məhəbbətlə sıx bağlıdır. Kiçikyaşlı məktəblilər nə qədər çox peşə ilə tanış olub, onlar haqqında müəyyən məlumatlara yiyələnsələr, gələcəkdə peşəseçmə işi də bir o qədər düzgün və şüurlu olar.

Həyatda belə faktlara çox rast gəlmək olur ki, şagirdlərin ibtidai siniflərdə inteqrativ təlimdə maraq göstərdikləri müəyyən bir peşə onların sonrakı həyat yoluna çevrilir. Kiçikyaşlı məktəblilər elmlərin əsaslarını öyrənərkən Azərbaycan dili dərslərində ilin fəsilləri, fəsillərə müvafiq əmək prosesləri, əmək adamlarının həyatı, fəaliyyəti haqqında müxtəlif şeirlər, hekayələr, texnoloji mətnlər oxuyub öyrənirlər. Həyat bilgisi dərslərində ətraf aləm, mühitlə tanış olur, müxtəlif hadisələrə münasibət bildirir, sağlamlıq və təhlükəsizlik qaydaları, iqtisadi bilik və bacarıqların təməlini nümayiş etdirirlər. Texnologiya dərslərində müvafiq texnologiyalardan istifadə etməklə, məmulatlar, model və layihələr hazırlayır, məişət xidmətlərini yerinə yetirməklə peşələrin əsaslarını, əməyə qiymət verilməsini mənimsəyirlər. Bütün bunlar şagirdlərin peşələr aləmi ilə, əmək adamları ilə tanışlıqlarında mühüm rol oynayır.

Kiçikyaşlı məktəblilərlə müxtəlif fənlər üzrə aparılan kompleks ekskursiyaların peşəyönümü vəzifələrinin həllində böyük təsir gücü vardır.

Belə ekskursiyalar şagirdlərin dünyagörüşünü, ətraf aləm haqqında biliklərini genişləndirir və müxtəlif peşələr haqqında məlumatlarını dərinləşdirir. Kiçikyaşlı məktəblilərlə müxtəlif kənd təsərrüfatlarına, texnoparklara, fabriklərə, innovasiya mərkəzlərinə, elmi-texniki muzeylərə, meşəyə, təbiət qoynuna təşkil edilən ekskursiyalar bu cəhətdən çox faydalıdır. İbtidai siniflərdə aparılan peşəyönümü işində müxtəlif peşə sahibləri və mütəxəssislərlə, sahibkarlarla, elm və incəsənət xadimləri ilə görüşlər praktik səciyyə daşıyır. Belə görüşlər bir tərəfdən şagirdlərin peşələr aləmi haqqında təsəvvürlərinin genişlənməsinə, digər tərəfdən isə bu adamların əməyinə, işinə hörmət və maraq formalaşdırır.

Yeniyetmə və gənclərin peşə marağının öyrənilməsi, qabiliyyətlərinin müəyyənləşdirilməsi, peşələrə aid məlumat, peşəyə aid bilik, bacarıq və vərdişlər, seçilmiş peşə üzrə işədüzəlmə, peşəyə uyğunlaşma, yenidənoriyentasiya məktəbdə peşəyönümünün məzmununu təşkil edir.

Müasir dövrdə peşəyönümü işini təlim-tərbiyənin tərkib hissəsi kimi dərk edən müəllim bacarığını elə istiqamətləndirməlidir ki, tələbələrdə peşələrə maraq oyada bilsin. Bu baxımdan tələbələrin peşəyönümü tərbiyəsində onların müxtəlif peşələrə istiqamətləndirilməsində **ədəbiyyat fənninin** imkanları genişdir. Bədii ədəbiyyat müxtəlif peşəli obrazlar silsiləsi ilə zəngindir. Ədəbi qəhrəmanların peşəsinə vurğunluğu tələbə şəxsiyyətini tərbiyə edir, onlarda bütün peşələrin faydalı olması qənaətini yaradır. Müsbət obrazın peşəsi bacarıqlı müəllimin şərhində elə qüdrətli zirvəyə ucaldılır ki, tələbə peşənin mahiyyətini aydın dərk edir və heyrətlənir.

Peşəyönümü gənc nəsli şüurlu surətdə peşə seçməyə hazırlamaq məqsədi ilə həyata keçirilən iş sistemidir. Məktəb yeniyetmə və gənclərə öz həyat yolunu tapmaqda, maraq və qabiliyyətinə uyğun peşə seçməkdə kömək etməlidir. Peşəyönümü sisteminin tərkib ünsürlərinə aşağıdakılar daxildir: ***peşə maarifi; peşə məsləhətləri; peşə təmayülü – peşəyə dair ilkin bacarıqların formalaşdırılması; peşə adaptasiyası – peşəyə uyğunlaşma.***

Azərbaycanda peşə təhsilinin inkişaf tarixi bir çox mərhələlərlə şərtlənir. İlk növbədə, xalqın əməyi nəticəsində yaranan milli sənət nümunələrinin tarixi bizi keçmişin minilliklərinə aparır. Milli çərçivədə yaranan bu zəngin xəzinə, xalqın maddi mədəniyyətini təşkil edir. Heç də təsadüfi deyildir ki, xalqın sənət nümunələri dünya muzeylərində, kolleksiyalarında dəyərli əsərlər kimi yer alaraq qorunur. Xalq sənətindən olan xalılar, müxtəlif təkəlduz nümunələri, toxuma və basma parçalar, zərgərlik əşyaları, metaldan, ağacdan, çinidən və daşdan hazırlanmış bədii nümunələr öz keyfiyyətinə, bənzərsizliyinə, tərtibatına, formasına, simmetriyasına və digər çalarlarına görə tədqiqat predmetinə çevrilmişdir [4, s.6].

Azərbaycan Respublikasının Konstitusiyasının 35-ci maddəsində deyilir: “Hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır”. Ona görə də təhsilalanların bu konstitusiya hüququndan düzgün istifadə edə bilməsi üçün onlara peşəyönümü prosesində elə bir mənəvi-psixoloji şərait yaradılmalıdır ki, şagird şəxsiyyət kimi sevdiyi, maraq göstərdiyi, qabiliyyət və bacarığına müvafiq olan peşəni sərbəst, müstəqil surətdə seçə bilsin. Öz imkanlarını sərbəst ölçüb-biçməyi, qabiliyyətlərinə müvafiq əmək sahəsi seçməyi bacarıb həm özünə, həm də dövlətinə, xalqına daha çox xeyir versin.

Peşəyönümündə müstəqillik və sərbəstlik prinsipinin gözlənilməsi təhsilalanları, eyni zamanda valideynlərin çox vaxt əsassız təhrikləri ilə üzləşdirir. Belə olduqda peşəyönümü işinin elmi şəkildə, konstitusiyanın tələbləri səviyyəsində həlli pozulur. Dahi Nizami Gəncəvi deyirdi:

*Hər kəs sənətdə olmasa azad,*
*Dünya bu gedişlə olurmu abad!*

Dövrün pedaqoqları və psixoloqları şəxsiyyətin formalaşmasına təsir edən amillər içərisində fəaliyyət amilini də xüsusi qeyd edirlər. Böyük Azərbaycan mütəfəkkiri Nizami Gəncəvi peşə və sənət seçməyin faydasını yüksək dəyərləndirmiş və onu halal yaşamağın əsas amili hesab etmişdir. Dahi şair-pedaqoq öz dövründə bu amilin, xüsusilə əmək fəaliyyətinin rolunu “Xəmsə”sində geniş qeyd etmiş, *“həyat əməkdir”* ideyasını irəli sürmüşdür. Onun fikrincə, əməksevərlik, çalışqanlıq, halal əməklə yorulmadan məşğul olmaq insanda bir sıra müsbət əxlaqi keyfiyyətlər formalaşdırdığı kimi, tənbəllik, yeyib-yatmaq, avaraçılıq da mənfi sifət-

lərin (öküzə, camışa, eşşəyə, milçəyə, ağcaqanada və s. heyvanlara xas olan cəhətlərin) yaranmasına səbəb olur [2, s.22].

Böyüyən nəslin sənətə yiyələnməsinin zəruriliyi hələ yazılı ədəbiyyatımız meydana gəlməmişdən çox əvvəllər xalqın ağıllı, müdrik insanları tərəfindən yüksək qiymətləndirilmişdir. Xalqımız hər hansı bir peşə və sənət öyrənməyi bir çox titullardan, var-dövlətdən, mal-sərvət toplamaqdan üstün tutmuş, bu işə xüsusi diqqət yetirmişdir. Bir xalq deyimində olduğu kimi:

*Güllərin həşəm olsun,*
*Gün vursun həşəm olsun.*
*Var-dövlətin olunca,*
*Sənətin, peşən olsun.*

Nizami Gəncəvi ölməz beş poeması (“Sirlər xəzinəsi”, “Xosrov və Şirin”, “Leyli və Məcnun”, “Yeddi gözəl”, “İskəndərnamə”) ilə dünya ədəbiyyatına tamamilə yeni bir poetik səs, nəfəs gətirməklə, sosial-iqtisadi problemlərin həllində metodologiya rolunu oynayır. Şairin əsərlərindən maariflənərək böyüyən nəsil dərin bilik və dunyagörüşünə, yuksək milli və bəşəri dəyərlərə, mənəvi keyfiyyətlərə malik olmaqla bərabər, özünün arzusuna, qabiliyyət və bacarığına, həmçinin cəmiyyətin kadrlara olan cari və perspektiv tələbatlarına müvafiq olaraq peşəyə uyğun ixtisas seçməyə hazırlanmalıdır. Bunun üçün ümumtəhsil məktəblərində təlim-tərbiyə işi elə səviyyədə aparılmalıdır ki, şagirdlər əsas təhsili bitirdikləri vaxt hansı peşə və ixtisas ardınca gedəcəklərini dəqiq bilsinlər.

Bəşəriyyətin ən böyük dühalarından olan Nizami Gəncəvinin yaradıcılığı xalqımızın elə bir möhtəşəm və mənəvi xəzinəsidir ki, bu xəzinənin qiyməti, dəyəri 880 ildir ki, artır. N.Gəncəvinin yaradıcılığı öyrənənlərə əmək tərbiyəsi aşılamaq üçün müəllimlərə zəngin nəzəri və praktik material verir. Əmək və peşə anlayışlarını əlaqəli şəkildə izah edərkən inam formalaşır: hər hansı bir peşəni kamil bilmək üçün gərgin əmək sərf etmək lazımdır. İnsan çalışmalıdır ki, öz sənətinin kamil ustası olsun, seçdiyi peşənin dərinliyinə və incəliklərinə bələd olsun. Şair fikrini səriştəliliklə belə çatdırır:

*Həm həkim, həm fəqih olsan sən, əgər,*
*Hamının yanında adın yüksələr.*
*Həyat da, ölüm də qul olar sana,*
*Səadət və şöhrət düşər payına (“Leyli və Məcnun”).*

Dahi şair əsərlərində əkinçi, bağban, çalğıçı, kərpickəsən, dəllək, qulluqçu, çoban, rəssam, alim, memar, usta və s. kimi surətlər yaratmaqla örnək olmuşdur. O, “Xosrov və Şirin” poemasında Fərhadı bir mühəndis, sənətkar kimi təqdim edir. Şair Şapurun dili ilə Fərhadı Şirinə belə təqdim edir:

*Fərhad adlı bir cavan vardır,*
*Usta mühəndisdir, bir sənətkardır.*

Şairin “Xəmsə”sində memarlıq, xalçaçılıq, musiqi, rəssamlıq və s. sənətlər haqqında dəyərli fikirləri bu gün də aktuallığını saxlayır. Onun “Yeddi gözəl” poemasında “Bəhramın yeddi rəngdə yeddi günbəz tikdirməsi” haqqındakı hekayələri peşəyönümü baxımından müasirliklə sintez olunmalıdır. Nizami Gəncəvinin poemalarında xalq sənətlərinə və xüsusən xalçaçılıq sənətinə, saraylar bəzəyən gözəl xalça təsvirlərinə geniş yer verilib. Bu sahədə deyilən fikirlərlə mənəvi zənginlik yaratmaqla, praktik tətbiqinə də nail olmalıyıq. “İskəndərnamə” əsərində İskəndərin Bərdə şəhərinə Nüşabənin sarayına qonaq getməsi səhnəsini, “Xosrov və Şirin”də Xosrovun Şirinin qəsrinə getməsi səhnəsini təsvir edərkən müxtəlif xalça növlərinə, Xosrovun ova çıxmasını təsvir edərkən məfrəşin, “Yeddi gözəl” əsərində Azərbaycanda çox geniş yayılmış xalça məmulatı olan heybənin təsvirini verən şairin müasir texnoloji yanaşma ilə emal prosesini reallaşdırmalıyıq. Təsviri incəsənət dərslərində xalçaçılıq sənətinin inkişaf tarixindən və xalça məmulatlarının müxtəlif növlərindən bəhs edərkən bu faktlardan bir dəlil kimi istifadə olunması öyrənənlərin bu barədə biliklərini genişləndirir. “Xəmsə”nin bu məsələlər baxımından tədqiqi və təhlilindən aydın olur ki, o, xalq pedaqogikasının məzmununu təşkil edir.

Onu da, qeyd etmək lazımdır ki, Nizaminin tərəfdar olduğu təhsilin məzmununda dünyəvilik çox qüvvətlidir. Nizaminin qəhrəmanları İskəndər, Bəhram Gur, Xosrov birinci növbədə elmi, təbiət elmlərini, dilləri və ictimai elmləri öyrənmək işi ilə məşğul olurlar. “Xəmsə”də geniş rast gəldiyimiz bitkilər (güllər, otlar, kollar, dərman bitkiləri, ağaclar, tərəvəz bitkiləri, meyvələr və s.) aşağıdakılardır: lalə, nərgiz, bənövşə, yasəmən, qərənfil, süsən, sünbül, nilufər, su zanbağı, səməni, kafur,

dəvətikanı, xəyzəran (bambuk), hənut (ətirli göyərti növü), qızılgül, əsməgülü, siçanqulağı, ərrəq gülü, inəkgözü, filqulağı, zəfəran, küncüt, zanbaq, süsənbər, jenşen (adamotu), üzərlik, öküzquyruğu, keşniş, tərə, reyhan, şənbəlid (vəhşi zəfəran), çəngi – Məryəm (dərman bitkisi), şəkər qamışı, zirə, qabaq, qovun, turunc, limon, tut, əncir, üzüm, püstə, badam, portağal, nar, qızılağac, sərv, abinus ağacı, şam və s. Şair heç bir əsərində yuxarıda qeyd olunan bitkilərin sadəcə adını çəkməklə kifayətlənməmiş, onların səciyyəvi xüsusiyyətlərini, başlıca əlamətlərini cəmi bir-iki misrada dərin müşahidəçilik qabiliyyətinə malik olan təbiətşünas alim, məharətli rəssam kimi təsvir etmişdir [3, s.72].

**Nəticə.** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2021-ci il ölkəmizdə "Nizami Gəncəvi İli" elan olunmuşdur. Bu əlamətdar hadisə Nizami Gəncəvi irsinin daha mükəmməl araşdırılması, şairin yaradıcılığının müasir tələblər baxımından elmi şəkildə tədqiqata cəlb edilməsi işinə yeni töhfələr verəcəkdir.

Peşəyönümü texnologiyasında Nizami irsinin nümunələrinə müasir sosial-iqtisadi şəraitdə istinad etmək mühüm əhəmiyyət kəsb edir. Nizamişünas alimlər eyni obyekt üzrə müxtəlif predmetləri tədqiq edirlər. Texnologiya məzmun xətlərinə görə Nizami irsinin nümunələrindən bacarıqla istifadə edib, real təcrübələrin aparılması üçün geniş imkanlar vardır. Nəzəri və praktik səciyyə daşıyan Nizami yaradıcılığını texnoloji olaraq emal prosesinə yönəltmək metodologiyasını hazırlamaq zamanın tələbidir.

## ƏDƏBİYYAT

1. Əliyev Q. Nizami Gəncəvinin əsərlərinin Azərbaycanda tədqiqi tarixi. "Azərbaycan müəllimi" qəzeti, 20 fevral 2021.

2. Apoyev B. Nizami Gəncəvinin pedaqoji görüşləri. Bakı, "Adiloğlu" nəşriyyatı, 2008, 244 səh.

3. Apoyev B. Nizami Gəncəvi irsindən pedaqoji prosesdə istifadə işinin sistemi (dərs vəsaiti). Bakı, "Mütərcim" nəşriyyatı, 2012, 216 səh.

4. Ağayev Ş. və b. Texniki-peşə təhsili müəssisələrində təlimin təşkilinin didaktik məsələləri. Bakı, "Nasir" nəşriyyatı, 2010, 204 səh.

5. Ağayev Ş. Texnologiya və onun tədrisi metodikası (bakalavriatlar üçün mühazirə mətnləri). Bakı, ADPU-nun nəşriyyatı, 2021, 408 səh.

**Sh.Aghayev, J.Garayeva**

### Examples of Nizami's legacy in career guidance technology

**Abstract**

The paper considers the importance of using traditional principles and methods of career guidance technology as an urgent part of an educational process in its arrangement and performance, significant changes in the purpose, tasks, and content of career guidance of primary students compared to preschoolers, and the great Azerbaijani poet and thinker Nizami Ganjavi's high appreciation of the benefits of choosing a profession, handicraft, who has considered it a key factor of an honest life, from theoretical and practical standpoints.

**Ш.Агаев, Дж.Гараева**

### Примеры наследия Низами в области карьерных технологий

**Аннотация**

Поскольку профессиональные технологии являются важной частью образовательного процесса, важно руководствоваться традиционными принципами и методами при его организации и проведении. Понимание Гянджеви преимуществ выбора профессии и искусства и его взгляд на это как на ключевой фактор в процессе обучения. На теоретических и практических основаниях было объяснено, что это главный фактор честной жизни.